**Sublimasiya edilmiş məhsullarla bağlı keçirilən nəzarət tədbirlərinə dair məlumat**

**(3 fevral 2026)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları dondurulub qurudulmuş (sublimasiya edilmiş) məhsullarla bağlı yoxlama keçirib.
Yoxlama zamanı "Healthy Chic" MMC-yə məxsus emal müəssisəsində istehsal tarixi qeyd olunmayan emal edilmiş məhsullar və qanunvericiliyə uyğun etiket məlumatları olmayan hazır məhsullar müəyyən edilib. Fiziki şəxs Məmmədov Zaur Bəylər oğluna məxsus “Bizim Çərəz”, fiziki şəxs Əlixanov Elsun Arzu oğluna məxsus "Qozzi" və "Buta Çərəz" MMC-yə məxsus "Buta Çərəz" qida obyektlərində qanunvericiliyə uyğun etiketlənməyən sublimasiya edilmiş məhsulların satışa çıxarıldığı aşkarlanıb.
Faktla bağlı sahibkarlıq subyektləri barəsində inzibati protokol tərtib edilib, məhsulların satışının dayandırılması və dövriyyədən çıxarılması barədə məhdudlaşdırıcı qərar qəbul edilib. Nümunələr götürüləlrək laborator müayinələrə cəlb olunub.